# *Dayandur SEVGİN-65*



İstedadlı şair Dayandur Sevgini 65 yaşının tamam olması münasibətilə təbrik edirik.

Dayandur Sevgin 1959-cu il fevral ayının 5-i İmişli rayonunda anadan olub. 2006-cı ildə Slavyan Universitetinin Bədii yaradıcılıq fakültəsini bitirib. Yaradıcılığa erkən yaşlarından başlayıb. 10-dan artıq şeir kitabı nəşr olunub.

Robert Yevdayevin şeirlərini rus dilindən, Otkir Raxmatın şeirlərini özbək dilindən tərcümə edib. Prezident təqaüdünə, Beynəlxalq Rəsul Rza mükafatına layiq görülüb. Bir neçə poeziya müsabiqəsinin qalibi olub.

1999-2021- ci illərdə "Kaspi" qəzetində ədəbiyyat şöbəsinin müdiri olub. Jurnalist kimi 8 dəfə Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondunun mükafatına layiq görülüb. Hazırda "Ulduz" jurnalında poeziya şöbəsinin redaktorudur.

Hörmətli qələm dostumuz Dayandur Sevgini 65 illik yubileyi münasibətilə bir daha təbrik edir, uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**